GS1 Azerbaijan" Ictimai Birliyi
Azerbaijan, Baku-AZ1010, Xaqani, 90A
T: +99412 498 7405
M: +99450 385 3839
E: ean@.gs1az.org
www.gs1az.org

**Hörmətli Sahibkar,**

GS1 Azerbaijan İctimai Birliyi 1999-cu ildən informasiya texnologiyalarının təbliği və tətbiqi ilə məşğul olur. "Qlobal Standart 1 Beynəlxalq Sisteminin Təbliği" İctimai Birliyi Azərbaycanda "GS1" Assosiasiyasının üzvü kimi çıxış edən və yerli müəssisələrin GS1 beynəlxalq sistemdə qeydiyyatını ölkəmizdə təmin edən yeganə təşkilatdır.
Biz, GS1 Azerbaijan "Qlobal Standart 1 Beynəlxalq Sisteminin Təbliği" İctimai Birliyi olaraq
"Ştrixli kodlaşdırma və onların istehsal sahələrində tətbiqinin əsasları" Təlimini təqdim edirik.
Ştrixkod əsaslı proqram təminatı şirkətdaxili prosesləri optimal şəkildə idarə etməyi hədəfləyən şirkətlər üçün mükəmməldir. Texnologiyanın əlverişli inkişaf nəticəsi olaraq yaranan bu identifikasiya üsulu işçi qüvvəsinə, zamana, eləcə də digər maddi və fiziki resurslara qənaəti təmin edir. Məlumdur ki, günümüzdə ənənəvi identifikasiya üsulları bir çox şirkətlərdə proseslərin avtomatlaşdırılmasında çətinlik yaradan və mikromenecmentə zəmin yaradan əsas məqamlardan biridir. Fəaliyyətimiz çərçivəsində təqdim etdiyimiz xidmətlər və təklif etdiyimiz təlim əsasında tədris etdiyimiz sistem şirkətlərin nəzarət və izləmə ehtiyaclarını optimallaşdırır, məlumat bazasının beynəlxalq standartlara uyğunluğunu təmin edir.
Ştrixkod əsaslı identifikasiya şirkətin məlumat bazasının insandan - əməkdaşdan asılılığını minimuma endirir ki, bu da nəticə etibarilə yalnız resurslara qənaət baxımından deyil, eyni zamanda konfidensiallığın qorunması baxımından da effektivdir.
Təlim proqramı çərçivəsində həm nəzəri bilikləri, həm də praktiki bacarıqları mənimsəyən əməkdaşlar bu sistem haqqında ətraflı məlumat əldə etməklə şirkətin müvafiq işlərinin optimallaşdırılmasında effektiv nəticələr əldə edə bilərlər. Belə ki, 3 günlük təlim proqramı çərçivəsində əməkdaşlar təlimçilərimiz tərəfindən ştrixkodlaşdırmanın nəzəri aspektləri və müvafiq avadanlıqlar haqqında ətraflı məlumat alaraq, ən çox sual yaradan məqamlar barədə nəzəri və praktiki bilikləri əldə edəcəklər. Həmçinin QR və digər 2D kodların istifadəsilə bağlı sual yaradan məqamlar da tədris olunacaqdır.
Ümid edirik ki, təklifimiz sizi maraqlandıracaq və təlimdən faydalanaraq əldə edilən biliklər Sizə ştrixkodlaşdırmanın imkanlarından ən yüksək səviyyədə istifadə etməkdə yardımçı olacaqdır.

**Hörmətlə,**
**Əliyeva Səbinə**

**GS1 Azerbaijan İctimai Birliyinin**
**İcraçı direktoru**